İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# RUZİGAR

MƏŞƏDBABA

parlaq
İMZALAR

Koordinator: Amin

Redaktor: Pünhan ƏZİM

Korrektor: Flora ƏLİYEVA

Tərtibatçı: İsmayıl SÜLEYMANLI

Cildin dizayneri: Ramin HƏSƏNƏLİZADƏ

**Məşədbaba Aydəmirov**
**RUZİGAR**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2023, 120 səh.

**© Məşədbaba Aydəmirov / 2023**
**© Parlaq İmzalar MMC / 2023**

Kitabın hazırlanmasında Qorxmaz Əlilicanzadənin "Qəzəl və meyxanə sənətində Məşədbaba Aydəmirov fenomeni" kitabından istifadə olunub. (2011)

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 115
Müasir Azərbaycan ədəbiyyatı | 7

ISBN 9952547269

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
Çap tarixi: 16.02.2023
Sifariş: 04(05)/23

# Mündəricat

**Qəzəllər**

Xar olmağıma ..... 11
Səda ..... 12
Cavid ..... 13
Görüb ..... 14
Bəsimdir ..... 15
Məni dindirmə, ey dilbər ..... 16
Ediblər ..... 17
Gecələr ..... 18
Bəyənibdir ..... 19
Vəfadar yoxdur ..... 20
Şux nigarımız yoxdur ..... 21
Olur ..... 22
Atasız ..... 23
Bilməz ..... 24
Eyləməz ..... 25
Gələcək ..... 26
Müvəşşəh ..... 27
Fəxriyyə ..... 28
Neyləyim ..... 29

Getmərəm ........ 30
Ey gözəlim ........ 31
Canan olub neyləmisən? ........ 32
Səndən ........ 33
Qurban olsun ........ 34
Nə deyirsən? ........ 35
Vətən ........ 36
Ey könül, bəsdir daha ........ 37
Məndən ........ 38
Qəmi qəmxanələrin ........ 39
Səninlə ........ 40
Sevənə ........ 41
Bu gözəl dilbəri kim görsə ........ 42
Sevgilim, bimarın oldum ........ 43
Olma məğrur, əzizim ........ 44
Gördü Məcnun bir gecə əğyar ilə Leylasını ........ 45
Sənin kimi ........ 46
İncitmə məni ........ 47
Sevsin səni ........ 48
Tərəf gəldi ........ 49
Kor olasan, lal olasan, kar olasan ........ 50
Olmuşam, ey gözəlim, gözlərinin bimari ........ 52
Ey insan ........ 53
Gəl yetiş ........ 55
Fəryad, yenə fəryad ........ 57
Tanrım sənə vermiş, gözəlim ........ 58
Bu, nəsihətdi, xeyirdi sənə ........ 60
Təmsil ........ 61

Atacan 63
Ay kasıb 64
Siqaret 66
Sonradan 67
Ruzigar içində 68
Qardaşımın 69
Qardaşım Fəxrəddinə 70
İçmə meyxanədə qan əhli ilə badeyinab 71
Şəfa versin sənə 72

## Qazamat şeirləri

İnsanlığı dərk eylə, adam vurma bıçaqla 75
Başqa 77
Ya Rəbb 78
Dünyadə cəhənnəm deyilən yer qazamatdır 79
Belə getməz 80
Atam yazıq 81
Razıyam 82
Qaldım 83
Bir gün 84
Qalmışam gör neçə
vaxtdır sənə həsrət, anacan 85
Sənsən aləmdə mənim
şöhrətü şanım, anacan 86
Eyləmisən 87
Keçdi bu ömür hər cürə dövranlar içində 88
Söndü tale ulduzum, qaldım qaranlıq türmədə 89
Tale nə ki vermişdi mənə, cümləsin aldı 90

Burada insan gedir badə 91
Dustlər, qürbətdəyəm,
zindan olubdur məskənim 93
Dustaqların 94
Bizə imdad elə, ya Rəbb, bizi də şad elə Sən 96
Sevgilim, bir zaman yaşardıq xürrəm 97
Çox uzaq deyil oğlun, Keşlə zindanındadır 98
Ağlama, bacı, bəsdir 99
Mahsun Qırmızıgül oxuyan zaman 100
Məhbus anası 101
Sən gələndə 102
Məhbusi-zindan olmuşam 103
Əfv elə, Pərvərdigara 104

## Mahnılar

Götürrəm səni 107
Maştağam mənim 108
Yoxdur belə canan 109
Ay qız, yalan əhdə, ilqarə inanma 111
Rəva görmə 113
İnsana edirlər bu saat hörməti pulnan 114
Unutma məni 115
Taleyim 116

# Qəzəllər

## Xar olmağıma

Sən səbəb oldun, əzizim, belə xar olmağıma,
Necə qıydın, gülüm, eşqin ilə zar olmağıma?

Mən ki eşqində sənin əhdə dönük çıxmamışam,
Razı oldun niyə bəs dərdə düçar olmağıma?

Sən özün atdın əzəldən mənə zülfünlə kəmənd,
Mənim heç bir günahım yoxdu şikar olmağıma.

Mən sənin şəminə pərvanə olandan, gözəlim,
Razıyam şövq ilə hər ləhzə ahar[1] olmağıma.

Sən ilə olsam əgər məclisi-meyxanədə mən,
Ehtiyac olmayacaq meylə xumar olmağıma.

Vəslə yetsəm sənin ilə, gözəlim, bir dəm əgər,
Razıyam sonra giriftari-məzar olmağıma.

Sızladıb dərd ilə tərk eylədin, ey gül, Babanı,
Ümidim yoxdu mənim bir daha var olmağıma.

---

1 Ahar – yanmaq

## Sәda

Bitdi ömrüm, çıxdı canım, çıxmadı yardan sәda,
Alәmә saldım sәda, gәlmәzmi dildardan sәda?

Mәn içimdәn ağlaram sәssiz, demә arsız mәnә,
Rәsmdir, qar yağsa, çıxmaz bircә an qardan sәda.

Boş yerә ah etmirәm mәn, bir sәbәb var ahimә,
Ta ki mizrab dәymәsә, çıxmaz, yәqin, tardan sәda.

Çox sәdalar var, eşitmәz bәndәlәr mindәn birin,
Tәkcә Rәbbimdir xәbәrdar kim, çıxar hardan sәda.

Rәhmәt ol mövla Әliyә, çün namazın pozmadı,
Baş yarıldı, çıxmadı Hәqqә vәfadardan sәda.

Gәl yetiş imdadә, ya Rәbb, aç dilin dinmәzlәrin,
Sәnsәn alәmdә verәn kәs yoxlara vardan sәda.

Yaz, Baba, göndәr bu şeiri nardaranlı haciyә,
Qiymәtin ustad verәr, gәlsin Әlәmdardan[1] sәda.

---

1 Şair Hacı Әlәmdar Mahir nәzәrdә tutulur.

## Cavid

Səni şair kimi yad eyləyirəm mən, Cavid,
Dahi şair olacaqsan bilirəm sən, Cavid.

Fəxrisən kəndimizin, sən gələcək şairisən,
Təbdə olmayacaq kimsə sənə tən, Cavid.

Bir zaman mən də gözəl şair idim, qoymadılar,
Ayrı saldı bu yolumdan məni düşmən, Cavid.

İki dostu necə gör yıxdı paxıl insanlar,
Elə düşmənlə yaxın olma, dolan gen, Cavid.

Can deyib can eşidən biz qoşa bülbüllər idik,
Qaldı bülbülsüz əcəb gör necə gülşən, Cavid.

O iki şairin indi birini sən əvəz et,
Elə sözlər de ki, qoy el desin “əhsən!”, Cavid.

Mən səni yad eləyib bir-iki kəlmə yazıram,
Sən də yad eylə məni, yazginən hərdən, Cavid.

Bir qəzəl yaz Babaya sən öz əlinlə, yada sal,
Səni şair kimi yad eyləyirəm mən, Cavid.

## Görüb

Məni yarım bəyənib, çünki məni sadə görüb,
Eşqimi saf, özümü yaxşı təmənnadə görüb.

Çox çəkibdir sınağa, yoxlayıb ol yar məni,
Canfədalıqda nigarım məni amadə görüb.

Leyli-Məcnun Nizami əgər almış qələmə,
Ya bunu təsvir edib, ya da ki röyadə görüb.

Lakin indi mənəm həqq aşiqi hal-hazırda,
Məcnun əfsanədir, kim de onu səhradə görüb.

Qulağım min söz eşitsə belə, gəlməz dilimə,
Babayam, mən yazıram, göz nəyi dünyadə görüb.

## Bəsimdir

Gülzar üzünü yar mənə göstərsə, bəsimdir,
Könlüm oradan bir dənə gül dərsə, bəsimdir.

Mən istəmərəm başqa gözəllər məni sevsin,
Öz yarım əgər xətrimi istərsə, bəsimdir.

Yoxdur fikirim xalça olum yad başı üstə,
Kandarda həsirtək məni yar sərsə, bəsimdir.

Mən neyləyirəm tutsa səsim külli-cahanı,
Allah mənə bir zümzümə göndərsə, bəsimdir.

Çoxdur neçə il dərsə gedib alim olanlar,
Bir dəfə gedib-gəlsəm əgər dərsə, bəsimdir.

Adəm babatək şeytana aldanmaram əsla,
Bir dəfə düşübdür işimiz tərsə, bəsimdir.

Mən cahü-cəlal istəmərəm, ey Baba, Həqdən,
Hər gün mənə bir parça çörək versə, bəsimdir.